

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 228 (23.390)

4 dekabr 2019-cu il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibi Haulin Jaonu qəbul edib.

Görüşdən məmnunluğunu ifadə edən Baş katib Haulin JAO deyib: – Siz mənim indiyədək dünyada ən çox görüşdüyüm Prezidentsiniz. "Bakutel" sərgisi hər il keçirilən tədbirdir. Bu il 25-ci ildönümünü qeyd edir.

Prezident İlham Əliyev: Bu, bizim əməkdaşlığımızın yaxşı göstəricisidir və Azərbaycanın İKT sektorunun inkişafına verdiyi önəmi əks etdirir. Əlbəttə, sizin şəxsən sərgidə iştirakınız çox vacibdir. Çünki bu, Beynəlxalq Telekommunikasiya İttifaqı üçün tədbirin əhəmiyyətli olduğunu göstərir. Biz, həmçinin bunu sözügedən sektorda gördüyümüz işlərə verilən qiymətin göstəricisi hesab edirik. Qeyd etdiyiniz kimi, bu, 25-ci sərgidir. İldən-ilə marağın artdığını görürük.

* * *

Prezident İlham Əliyev dekabrın 3-də Türkiyə Respublikasının Nəqliyyat və İnfrastruktur naziri Mehmet Cahit Turhanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Dövlət başçısı həmin gün İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhrominin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

## E.S.İsayevin Naxçıvan Dövlət Universitetinin rektoru təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elbrus Saleh oğlu İsayev Naxçıvan Dövlət Universitetinin rektoru təyin edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

## E.S.İsayevin Naxçıvan Müəllimlər İnstitutunun rektoru vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elbrus Saleh oğlu İsayev Naxçıvan Müəllimlər İnstitutunun rektoru vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

## S.H.Məhərrəmovun Naxçıvan Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Saleh Heydər oğlu Məhərrəmov Naxçıvan Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində noyabr ayında qərarlar qəbul edilmişdir

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 noyabr tarixli 158 nömrəli Qərarı ilə "Şahbuz Rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsinin Nizamnaməsi" təsdiq edilmişdir. Adıçəkilən qərara əsasən xəstəxana Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyindədir və Şahbuz rayonunun əhalisinə çoxprofilli stasionar və ambulator tibbi yardım göstərən laborator müalicə və profilaktika təyinatlı diaqnostik müəssisədir.

Nazirlər Kabineti 2019-cu il 26 noyabr tarixli "Naxçıvan Muxtar Respublikasına səfər edən İran İslam Respublikası vətəndaşlarının viza tələbindən azad edilməsi haqqında" Qərar qəbul etmişdir. Qərara əsasən Naxçıvan Muxtar Respublikasına səfər edən İran İslam Respublikası vətəndaşları 2019-cu il dekabrın 1-dən giriş və tranzit viza tələbindən azad edilmişdir.

Eləcə də "Naxçıvan Muxtar Respublikasında dövlət tərəfindən yaradılan peşə təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 iyun tarixli 72 nömrəli Qərarında dəyişiklik edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Müsabiqənin test imtahanları mərhələsi başlayıb

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 18 sentyabr 2019-cu il tarixdə elan olunmuş müsabiqənin test imtahanları mərhələsinə dekabr ayının 2-dən start verilib. Müsabiqəyə çıxarılan 224 vakant vəzifənin tutulması üçün 573 namizəd sənəd təqdim edib.*

Namizədlərin daha çox sənəd təqdim etdiyi dövlət orqanları sırasında Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (203 nəfər), Dövlət Statistika Komitəsi (95 nəfər), Təhsil Nazirliyi (67 nəfər), Dövlət Sosial Müdafiə Fondu (40 nəfər), Gənclər və İdman Nazirliyi (34 nəfər) üstünlük təşkil edir.



İmtahan başlanmazdan əvvəl namizədlərə slayd vasitəsilə imtahan və test proqramından istifadə qaydaları haqqında məlumat verilir. İmtahanda qanunvericilik üzrə 40, Azərbaycan dili üzrə 15, informasiya texnologiyaları üzrə 15, məntiqi təfəkkürün yoxlanılması üzrə 30 olmaqla, 100 sual təqdim edilir, sualları cavablandırmaq üçün 2 saat 30 dəqiqə vaxt verilir. Obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılır. İmtahan bitdikdən dərhal sonra namizədlərə test imtahanının nəticəsinə dair arayış təqdim edilir. Nəticələr Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında (*www.dqmk.nmr.az*) yerləşdirilir. Test imtahanlarında müvafiq keçid balını toplayan şəxslər müsahibə mərhələsində iştirak etmək hüququ qazanacaqlar.

Test imtahanları 18 dekabr 2019-cu il tarixədək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Əhalinin yüksəkkeyfiyyətli yerli heyvandarlıq məhsulları ilə təminatı diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafı daim diqqət mərkəzində saxlanılır. Bu sahədə əhəmiyyətli yer tutan heyvandarlığın inkişaf etdirilməsi, əhalinin müxtəlif çeşidlərdə heyvandarlıq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi istiqamətində bir sıra işlər görülür. Dövlət dəstəyi nəticəsində bu ilin ötən dövrü ərzində muxtar respublikada 9 heyvandarlıq təsərrüfatı yaradılıb, 2-si isə genişləndirilib, belə 10 təsərrüfatın yaradılması, 4-nün isə genişləndirilməsi işləri davam etdirilməkdədir. Əhalinin heyvandarlıq məhsulları ilə təminatının daha da yaxşılaşdırılması, yüksək genetik potensialı olan heyvanların baş sayının artırılması, bu sahəyə olan marağın gücləndirilməsi üçün "Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dair dövlət dəstəyi" haqqında Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 avqust tarixli Sərəncamı ilə süni mayalanma yolu ilə alınmış hər baş buzova yüz manat həcmində subsidiyanın müəyyən edilməsi bu sahənin dinamik inkişafına təkan verən amillərdəndir.

Cari ilin yanvar-sentyabr aylarında heyvandarlıq təsərrüfatlarında 9654 baş inək, düyə və camış süni yolla mayalandırılıb, bu dövr ərzində mayalandırılmış inək, düyə və camışlardan 6764 baş sağlam bala alınıb. 2019-cu ilin bəhs olunan dövründə muxtar respublikada diri çəkidə 19105,5 ton ət, 72451,4 ton süd istehsal olunub ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 6 və 1,8 faiz çoxdur.

Heyvandarlığın inkişaf etdirilməsi, məhsuldarlığın artırılması, keyfiyyətinin yaxşılaşdırılmasında mühüm məsələlərdən biri də yem bazasının yaradılması və mal-qaranın qüvvəli yemlə təmin edilməsidir. Muxtar respublikada mal-qaranın qarışıq yemlərə böyük ehtiyacının olması nəzərə alınaraq 23 avqust 2012-ci ildə Naxçıvan şəhərində illik gücü 70 min tondan artıq olan balanslaşdırılmış qarışıq yem istehsal edən müəssisə istifadəyə verilib. Həmin müəssisədə ətlik, südlük, yumurtalıq istiqamətləri üçün qarışıq yem hazırlanır. Bu da heyvandarlığın və quşçuluğun illik qarışıq yemə olan tələbatını tam ödəyir. Mal-qaranın qaba və şirəli yemlərə olan tələbatının tam ödənilməsi məqsədilə yonca, silosluq qarğıdalı, silosluq günəbaxan kimi qiymətli yem bitkilərinin əkin sahələrinə aqrotexniki qaydalara uyğun qulluq edilməklə məhsuldarlıq artırılır.

Muxtar respublikada ət və süd məhsullarının yüksək keyfiyyət göstəricilərinin təmin olunması məqsədilə Dövlət Baytarlıq Xidməti tərəfindən mütəmadi olaraq mal-qara və quşlar arasında müxtəlif xəstəliklərə qarşı profilaktik peyvəndləmə və dezinfeksiya işləri aparılır.

Muxtar respublikada həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində aqrar sahənin inkişafında uğurlu nəticələrə nail olunub, xüsusilə heyvandarlığın intensiv inkişafı, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması, müasir təsərrüfatçılıq modellərinin yaradılması istiqamətində mühüm işlər görülüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 sentyabr tarixli "Naxçıvan Muxtar Respublikasında Süni Mayalanma Mərkəzinin yaradılması haqqında" Sərəncamı bu sahənin inkişaf etdirilməsinə təkan verəcək. "Naxçıvan Muxtar Respublikasında Süni Mayalanma Mərkəzinin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 noyabr tarixli sərəncamına əsasən mərkəzə 4 milyon 800 min manat vəsait ayrılmışdır. Bu da Süni Mayalanma Mərkəzinə müasir standartlara cavab verəcək texnoloji avadanlıqların alınıb gətirilməsinə, heyvandarlığın inkişafında yeni mərhələyə qədəm qoymasına imkan verəcək. Hazırda 23 süni mayalanma məntəqəsinin fəaliyyət göstərdiyi muxtar respublikada yeni yaradılacaq mərkəz bu sahədə işləri daha da təkmilləşdirəcək.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

**Dinimiz mənəviyyatımızdır**

# İslam mədəniyyətinin beşiyi, dini dəyərlərimizin ehtiramla qorunub yaşadıldığı ORDUBAD

*“Şərqin qapısı” adlandırılan Naxçıvan əsrlərboyu mədəniyyətlərin qovuşduğu məkanda yerləşməklə dinlər və sivilizasiyalararası anlaşmada aparıcı rol oynayıb. Bu gün muxtar respublikamızın bütün rayonlarında dini dəyərlərin, tolerantlıq mühitinin yaşadılması və yüksək səviyyədə qorunub saxlanması beynəlxalq ictimaiyyətin diqqətini hər zaman cəlb edir.*



Belə rayonlarımızdan biri də Ordubaddır. Azərbaycanın qədim tarixə malik bölgələrindən biri olan Ordubad gözəl təbiəti və özünəməxsus dəyərləri ilə seçilir. Bu rayon hələ qədim zamanlardan Şərqin memarlıq ənənələrini özündə yaşadan, zəngin milli ornamenti, özünəməxsus memarlıq üslubu ilə seçilən tarixi abidələri ilə məşhur olub. Avropanın qabaqcıl şəhərsalma təcrübəsi tətbiq edilərək yenidən qurulan, hər il neçə-neçə müasir abidələr ucaldılan muxtar respublikamızın hər yerində olduğu kimi, Ordubadda da bu, tarixi-memarlıq abidələrinə göstərilən diqqət və qayğının təzahürüdür. Rayon ziyalıları ilə söhbət zamanı da onlar bildirdilər ki, Naxçıvanın hər bir bölgəsində, o cümlədən Ordubad rayonunda aparılan abadlıq, quruculuq tədbirləri bütün sahələri əhatə edib. Qədim tarixi tikililərin bərpa edilməsi tarixi-memarlıq abidələrinə göstərilən qayğı milli və dini dəyərlərin ən yüksək səviyyədə qorunub saxlanılmasının nəticəsidir.



*“Came” məscidi*

Tarixi-memarlıq abidələri sırasında olan məscidlər rayonun görünüşünə gözəllik qatmaqla yanaşı, həm də İslam mədəniyyətinin qoruyucusu rolunu oynayır. Demək olar ki, Ordubadın kəndlərinin hamısında kənd məscidləri mövcuddur. Məscid tikintisi rayonda intensiv aparılır. Artıq Ordubad rayonunun Anaqut kəndində 255 kvadratmetr ərazini əhatə edən yeni məscid binasının da tikintisi başa çatıb. Ordubadda hazırda 20-dən çox məscid fəaliyyət göstərir. Belə tarixi qədimliyi qoruyub saxlayan dini-memarlıq abidələri “Came”, “Ambaras”, “Sərşəhər” və “Mingis” məscidləridir. Qalanları isə şəhər küçələrinin bəzəyi olan məhəllə məscidləridir.



*“Ambaras” məscidi*

Əvvəlcə yolumuzu “Came” tərəfdən saldıq. Bu məscid İslam dini qaydalarına uyğun şəhər-memarlıq üslubunda inşa olunub. Orta əsrlərə aid memarlıq abidəsi şəhərin mərkəzi meydanının ən hündür yerində ucalır və möhtəşəmliyi ilə diqqəti cəlb edir. Hər namaz vaxtı verilən azan səsi insanları Uca Allaha ibadət üçün məscidə səsləyir. Kvadratşəkilli, yastı damlı məscid binasının 6 kiçik günbəzi olsa da, minarəsi yoxdur. Ona görə də burada minarədən yox, İslamın ilk dövrlərində olduğu kimi məscid damının üstündən azan verilir.

Rayonun tanınan ağsaqqallarından Mirhəsən kişi bildirdi ki, şəhərin relyefi, yəni çinar ağacları ilə əhatə olunması məscidlərdə minarənin olmamasının əsas səbəbidir. Həmçinin o deyir ki, Sovetlər Birliyi dövründə rayondakı məscidlərin əksəriyyəti anbar kimi istifadə edilib. “Came” məscidinin cənubundakı meydanda vaxtilə karvansaraylar, dükanlar olub. Hazırda məscidin şimal-şərqində mədrəsə, qərbində isə zorxana binaları yerləşir. Məscid və ətraf binalar 1987-ci ildə əsaslı şəkildə bərpa olunub.

Ötən əsrin sonlarında yenidən dövlət müstəqilliyi qazanıldıqdan sonra Ordubadda da dini dəyərlərimiz sərbəst şəkildə icra olunub, nəticədə, tarixi tikililər olan məscid binalarının böyük əksəriyyəti yenidən bərpa edilib.

Qeyd edək ki, “Came” məscidinin qadınlar və kişilər üçün ayrı giriş qapısı vardır. Məscidin həyətində yaşı min illərlə ölçülən çinar ağacları və şəfalı sulu qədim kəhrizin olması tarixi abidəni görmək üçün buraya gələnlərdə maraq yaradır. Bu məscidin tarixi dəqiq məlum deyil. Öyrəndik ki, 1901-1902-ci illərdə məsciddə təmir işləri aparılarkən tapılmış bir kitabə üzərindəki yazıdan onun əsasının hicri-qəməri 111-ci (miladi 729) ildə qoyulduğu ehtimal olunur. İslam dininin yayıldığı ilk vaxtlara təsadüf edən bu tarix həm də onu sübut edir ki, hələ o dövrlərdə Ordubad inkişaf etmiş yaşayış məskənlərindən biri olub. Məscidin şimal qapısı üzərində olan daş lövhədə həkk edilmiş I Şah Abbasın nəsx xəttilə 1604-cü ilə aid olan farsca beşsətirlik fərmanı diqqətimizi çəkir. Fərmanda deyilir ki, Ordubad əhalisi göstərdiyi mərdlik, şücaət və müdrikliyinə görə bütün vergilərdən azad olunur. Bu yazılı kitabə ordubadlıların torpaq sevgilərinin, elmin, mədəniyyətin inkişafında mühüm rol oynadıqlarının əyani sübutudur.



*“Mingis” məscidi*

Buradan şəhərin digər qədim abidəsi, XVII-XVIII əsrlərə aid tarixi abidə olan “Ambaras” məscidinin qarşısına gəlib çıxırıq. Məscidin tavanında taxta üzərində yazılı kitabədə binanın hicri-qəməri 1284-cü (miladi 1867-1968) ildə Cəfərqulu Ağababa oğlu tərəfindən təmir olunduğu və adının da “Ağa Mirzə Cəfər məscidi” kimi həkk edildiyi görünür. Türk imperatorunun adını daşıyan məscid “Mir Cəfər” və “Sultan Murad” adları ilə də tanınır. Bu, məscidin Sultan Muradın adına tikilməsi və Mir Cəfər tərəfindən bərpa edilməsi ilə əlaqədardır. Burada da minarə yoxdur. Yenə də qoca çinar ağacları və qədim çeşmə diqqətimizi çəkir. Şəhər sakinlərindən Əli Ağayev qeyd edir ki, məscid çinar ağacının nəhəng budağının qırılması nəticəsində uçub dağılıb, sonralar məscid yenidən bərpa olunub.



*“Sərşəhər” məscidi*

Yolumuzu Sərşəhər məhəlləsində yerləşən eyniadlı məscidə tərəf salırıq. Ordubaddakı bu məscid digər məhəllə məscidlərindən ikimərtəbəli olması ilə fərqlənir. Bu məscidin birinci mərtəbəsi kişilərin, ikinci mərtəbəsi isə qadınların ibadət etməsi üçün nəzərdə tutulub. Qadınların ikinci mərtəbəyə qalxması üçün çöl tərəfdən dolama pilləkən qoyulub. Məscidin XVIII əsrdə inşa olunduğu ehtimal olunur. İkimərtəbəli məscidin mehrabı, ağac sütunları, şəbəkəli pəncərələri və meydanı var. İkinci mərtəbədəki kitabxanada dini kitablar və əlyazmalar saxlanılır. Bu məscid də digərlərindəki kimi minarəsizdir və meydanında yaşı yüz illərlə ölçülən çinar ağacı və çeşmə var. Məscid 1986-cı ildə bərpa və təmir edilərək, meydan kompleksi şəklinə salınıb.

Nəhayət, böyük məscidlərin sonuncusu olan “Mingis” məscidinin yanına gəlib çatırıq. Bu tarixi-memarlıq abidəsi Ordubad şəhərinin Mingis məhəlləsində yerləşir. Giriş qapısının baş tərəfində qoyulmuş mərmər lövhə üzərindəki kitabədən aydın olur ki, məscid hicri-qəməri təqvimi ilə 1088-ci ildə (miladi 1677) Əbdülhüseyn Ordubadinin oğlu Məhəmməd Hadi tərəfindən bərpa etdirilib. İki mərtəbədən ibarət olan tarixi tikilinin birinci mərtəbəsi təsərrüfat məqsədləri üçün istifadə olunur. Digər dini ibadətgahlarımızda olduğu kimi, bu məscidin həyətində də çinar ağacı və kəhriz mövcuddur. Sadəliyi və gözəlliyi ilə seçilən məscid 2001-ci ildə bərpa edilib.

Bundan başqa, Ordubadın Anabad, Azakənd, Nüsnüs, Düylün, Aşağı Əylis, Baş Dizə, Nəsirvaz, Parağa və digər kənd məscidləri də vardır. Sevindirici haldır ki, bu gün muxtar respublikamızın bütün rayonlarında fəaliyyət göstərən məscidlərdə hər kəs dinimizin buyurduğu ayinlərin icrasını sərbəst yerinə yetirə bilir.

Onu da qeyd edək ki, İslam mədəniyyətinin qiymətli abidələri olan, insanlara birlik, bərabərlik, sevgi və mehribanlıq aşılayan məscidlərimiz həm də 2018-ci ildə İslam Mədəniyyətinin Paytaxtını görməyə gələnlər üçün zəngin və heyrətedici mənbələr olub. Bütün bunlar inkişafın, müasirliyin, birliyin və həmrəyliyin nümunəsi kimi qədim sivilizasiyanın beşiyi olan muxtar respublikamızın dünyada tanıdılmasında çox mühüm əhəmiyyət kəsb edəcək.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Müasir texnologiyaların tətbiqi daşınmaz əmlakın qeydiyyatını sadələşdirib

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən müasir texnoloji yeniliklərin tətbiqi ilə əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır. Komitədə daşınmaz əmlakın qeydiyyatı prosesinin daha da sadələşdirilməsi, bu sahədə operativliyin artırılması üçün növbəti yeniliyin tətbiqinə – daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarışların verilməsinə başlanılıb. Bu məqsədlə daşınmaz əmlakın elektron qeydiyyatı sisteminin proqram təminatı yenilənib və müvafiq funksionallıq yaradılıb. Komitənin internet səhifəsində elektron xidmətlər bölməsinə “Daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarışın verilməsi” və “Daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarışın yoxlanılması” xidmətləri əlavə edilərək Naxçıvan Muxtar Respublikasının “Elektron hökumət” portalına inteqrasiya olunub.

Hüquq sahibləri müvafiq xidmətdən istifadə etməklə daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarışı müəyyən olunmuş müddət ərzində Naxçıvan Muxtar Respublikasının “Elektron hökumət” portalından onlayn qaydada əldə edə bilərlər. Həmçinin vətəndaşlar və aid dövlət orqanları üçün portal vasitəsilə çıxarışın qeydiyyat nömrəsini və daşınmaz əmlakın reyestr nömrəsini daxil etməklə onun həqiqiliyini yoxlamaq imkanı yaradılıb.

Daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarışlar elektron imza ilə imzalanaraq vətəndaşın “Elektron hökumət” portalındakı kabinetinə yerləşdirilir. Şəxsi kabineti olmayan vətəndaşlar isə “Elektron hökumət” portalından qeydiyyatdan keçdikdən sonra məlumat bazasında saxlanılan elektron çıxarışlar avtomatik olaraq onların şəxsi kabinetlərinə göndərilir.

Elektron imza ilə təsdiq edilmiş çıxarışlar kağız formada tərtib edilən çıxarışlardakı bütün məlumatları özündə əks etdirir və aid olduğu daşınmaz əmlaka dair bütün əməliyyatlarda tam hüquqlu sənəd kimi istifadə edilə bilər. Elektron çıxarış sisteminin tətbiqi kağız çıxarışın itirilməsi, yararsız hala düşməsi ilə bağlı riskləri aradan qaldırır, ayrı-ayrı dövlət qurumları tərəfindən verilən sorğuların operativ qaydada cavablandırılmasını təmin edir.

Qeyd edək ki, komitənin internet saytında daşınmaz əmlakla bağlı əməliyyatların aparılması, o cümlədən daşınmaz əmlakın dövlət reyestrindən çıxarışların verilməsi ilə bağlı tələb olunan ödənişlərin əvvəlcədən hesablanması üçün “əmlak kalkulyatoru” da istifadəyə verilib.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin göndərişi əsasında noyabrın 25-dən feldşer və sürücülər üçün “Təcili və təxirəsalınmaz tibbi yardım” üzrə təkmilləşdirmə kurslarına start verilib.*

## Feldşer və sürücülər üçün təkmilləşdirmə kursları

İlk mərhələdə muxtar respublikanın Culfa, Ordubad, Babək, Şahbuz və Kəngərli rayonlarının səhiyyə müəssisələrində və onların tabeliyində çalışan 21 nəfər, eləcə də Sədərək Gömrük İdarəsi Sədərək Gömrük Postunda çalışan 3 nəfər təcili tibbi yardım feldşer və sürücüləri olmaqla, 24 nəfər kurslarda iştirak edir. Onlar öz ixtisasları üzrə Naxçıvan Tibb Kollecində 18 iş günü nəzəri, Naxçıvan şəhərinin tibb müəssisələrinin təcili tibbi yardım şöbələrində isə praktik təcrübə keçirlər.

Təcrübə kursu həkim Əkrəm Məmmədli tərəfindən tədris olunur. Kursları bitirənlər imtahandan keçərək sertifikat alacaqlar.

Qeyd edək ki, tibb işçilərinin ixtisas səviyyəsinin artırılması muxtar respublikamızda diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Bu məqsədlə mütəmadi olaraq tibb işçiləri Bakı şəhəri, Türkiyə Respublikasının müxtəlif klinika və xəstəxanalarına kurslara göndərilir və digər tədbirlərdə iştirak edirlər. Son illər ayrı-ayrı ixtisas həkimlərinin, eləcə də orta tibb işçilərinin peşə bacarıqlarının yüksəldilməsi də belə tədbirlər sırasındadır.

Təkmilləşdirmə kurslarının keçirilməsi tibb müəssisələrində çalışan hər bir işçinin nəzəri və praktik biliyini artırır, ümumilikdə, səhiyyənin inkişafına şərait yaradır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

Hüseyn İbrahimov – 100

# Böhtanın məhbusu

*Hüseyn İbrahimov... Ərtoğrol Cavid... Bu il Naxçıvan ədəbi-mədəni mühitinin bu iki yetirməsinin 100 illik yubileylərinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları böyük şəxsiyyətlərin həyat və yaradıcılığına bəslənən hörmətin, verilən dəyərin, mədəniyyət və ədəbiyyatımıza qayğının növbəti göstəricisi kimi yaddaşlara həkk olundu. Ard-arda verilən sərəncamlar həm də bu iki böyük sənətkarı "Böhtan" əsərində birləşdirən anları xatırlatmışdı mənə. Gözəl romanlar müəllifi, Xalq yazıçısı Hüseyn İbrahimovun Hüseyn Cavidə atılan böhtandan bəhs edən "Böhtan" əsərindəki anları. Düşünmüşdüm ki, hələ illər öncə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun böyük köməkliyi ilə işıq üzü görən romanı yenidən vərəqləyib 100 ilin işığında Hüseyn İbrahimovun Cavid ömrünün qaranlıqlaşdırılmış səhifələrinə gətirdiyi aydınlıqdan söhbət açmaq yerinə düşər. Vərəqlədim də...*



Məhbus... Bu sözü eşidən an ilk olaraq nəzərlərdə yalnız hansısa bir cinayət – oğurluq, quldurluq, qətliam törədib dəmir barmaqlıqlar arasına məhkum olunanlar – məhbus adını daşıyanlar canlanır. Lakin bu, xalqımızın acı taleyi idi ki, onun ictimai-siyasi, ədəbi-mədəni həyatının ən fəal üzvləri, ölkəmizin aparıcı qüvvələri məhbus olmuşdular: Böhtanın məhbusu. Özlərini, vəzifələrini hər şeydən üstün tutanların, sovet imperiyasının əsarət buxovu zəncirlərinin qoruqçularının, ona kiçik bir xələl gəlməsini xalqından, millətindən çox sevənlərin böhtanı ilə yüzlərlə dəyərli insanlarımızı itirdik repressiya illərində. Xalqının tarixinə, milli adət-ənənələrinə, dilinə, dininə sadiq, istəkləri, sadəcə millətini azad, xoşbəxt görmək olan insanları... Böhtanın, şərin həyatını nisgilə çevirdiyi, bu gün də haqqında oxuyarkən qəlbimiz yanan, içimizə ruhundan əzmkarlıq, fədakarlıq hopan qurbanlardan biri də Azərbaycan poeziyasının romantik, dahi filosof şairi Hüseyn Cavid idi.

Cavidə qarşı haqsızlığa üsyandan qələmə alınan onun haqqında ilk əsər olan Hüseyn İbrahimovun "Böhtan" romanı müəllifin özünün də qeyd etdiyi kimi, şair-dramaturqun zəngin və orijinal ədəbi irsini dəfələrlə araşdırmasından, onunla bir yerdə sürgün həyatı yaşamış şahidlərin dediklərini saf-çürük etməsindən, onun həbs olunması üçün düzəldilən xüsusi qovluqdakı sənədlərlə tanış olmasından sonra, bir də şəxsi mülahizələri və yazıçı təxəyyülü ilə ərsəyə gəlmişdir. Hüseyn İbrahimovun naxçıvanlı olması Hüseyn Cavidin uşaqlıq illərinin Naxçıvanının gözəl təsviri, onun Türkiyədə, Bakıda yaşadığı, həbsxanada olduğu dövrlərdə doğma şəhəri, bu qədim diyarın adət-ənənələri, şairin ata ocağının dolğun təsvirləri ilə əsəri daha da canlandırmışdır.

"Yalan ayaq tutar, amma yeriməz", – deyib atalarımız. Bəli, bu yalan və böhtanların hamısı illər sonra alt-üst olsa da, böyük şəxsiyyətlərimizin hər biri bəraət alsalar da, lakin bu yalanlar, böhtanlar repressiya illərində ayaq da tutdu, yeridi də, yüzlərə, minlərlə ömürləri sonlandırdı da, ailələri viran, övladları ata-ana həsrətli, "xalq düşməninin" oğlu, qızı etdi də. Lakin...

### *Söz hələ ki, qəvinin idi*

Bəli, hələ ki, söz bu xalqın "sapı özündən olan baltalarının" idi. Mənəviyyatını boyunduruğunda yaşadığı imperiyanın yolunda qurban verən, yalnız bu gün üçün yaşayan, dünənini unudub, gələcəyin üstündən bir xətt çəkən qəvilərin idi söz. Onların bir kəlməsi ilə dəyərli bir insan ömrü puç olur, onların bir sözü ilə həyatı, fəaliyyəti ilə xalqının bir gərəklisi damğalanır, şərin, böhtanın qurbanına çevrilirdi. Tək Azərbaycanın yox, digər 14 müttəfiq respublikanın da hər birinin bəlasına çevrilən "sovet sədaqəti" fəhlə, kəndli, cavan, qoca, ziyalı, kim olur olsun sözünü deməyə, fikrini bildirməyə cəsarəti olanların qəvisi idi. Böyük yazıçı Hüseyn İbrahimov böyük ürək yanğısı ilə Cavidin simasında Uzaq Sibirdə bu müttəfiqlərdən olan və böhtanın məhbusluğunu yaşayan yüzlərlə insanın oxşar taleyindən söhbət açır: "Baraka toplaşan məhbusların hamısının onsuz da kədərli, tük basmış sifətində nahaqdan əzab çəkən, havayıdan mənliyi ləkələnən, üstünə şər atılan, şamata yaxılan adamlara xas olan müəmmalı cizgiləri oynaşırdı".

Bakıda Keşlə həbsxanasında Cavidi dindirən poeziya vurğunu çeşməkli müstəntiq də günlərin bir günü "imam övladının" (Azərbaycanın ozamankı rəhbərini dustaqlar öz aralarında belə adlandırırdılar) qəzəbinə gəlib böhtanın məhbusuna çevriləndə və Maqadanda Cavidlə barak yoldaşı olanda şairə verdiyi sual və aldığı cavab da çox maraq doğurur:

"Keçmiş müstəntiq:

– Dostoyevskinin "Alçaldılmışlar və təhqir olunmuşlar" romanını oxuyubsan?

Hüseyn Cavid:

– Oxumuşam... Ancaq biz nə alçaldılmışlarıq, nə də təhqir olunmuşlar... Biz ləkələnmişlər və qara yaxılmışlarıq..."

Bəli, dindirmələrdən, yalanlardan, təhqirlərdən bezən Cavid əfəndi ləkələnməyin alçaldılmaqdan, qara yaxılmanın təhqir olunmaqdan da dəhşətli olduğunu vurğulayırdı bu cavabı ilə.

### *İblis nədir? – Cümlə xəyanətlərə bais... Ya hər kəsə xain olan insan nədir? – İblis!..*

Azərbaycan romantik mənzum dramaturgiyasının banisi Hüseyn Cavidi ən çox məşhurlaşdıran və ona böyük şöhrət qazandıran dram əsərləridir. Onun mərdlik, mənəvi nəciblik, insani sədaqət duyğuları aşılayan "Ana"sı, qadın azadlığını önə çəkən "Maral"ı, məhəbbət faciəsi olan "Şeyx Sənan"ı, cəmiyyətin sosial ziddiyyətlərində usanan "Şeyda"sı, avropalaşmanın milli mənəviyyatı yuvarlatdığı "Uçurum"u, müharibələrin, faciələrin, iblisliyin insanlığı məhvə sürükləyən "İblis"i, faciəvi "Afət"i, islami "Peyğəmbər"i, tarixi ziddiyyətli "Topal Teymur"u, inqilabi "Knyaz"ı, "Şahnamə" dastanlı "Səyavuş"u, insanlıq, məhəbbət, xeyirxahlıq fəlsəfəli "Xəyyam"ı, "İblis"inin davamı olan "İblisin intiqamı"nın hər biri Hüseyn Cavidin gözlərinin işığını alan gözəl səhnə əsəridir. Həyatın əsl üzünü açan, insanları doğruluğa, dürüstlüyə, sülhə, əmin-amanlığa, insanlığa, saflığa, milliliyə, Vətənə sevgiyə çağıran bu əsərlərindəki əksər obrazlar kim deyərdi ki, bir gün kimlərinsə ürəyinə xof salıb, o obrazlarda özlərini gördükləri üçün Cavidin faciəsinə çevriləcəkdi. Həmin obrazlar iblisləşmiş insanların prototipi olaraq bu suallara cavab verəcəkmiş: İblis nədir? – Cümlə xəyanətlərə bais...Ya hər kəsə xain olan insan nədir? – İblis!.. Üçüncü sualı da, sualın cavabını da biz verək: Kim idi yüzlərlə insanı böhtanın, yalanın qurbanına çevirən? – Xalqına xəyanət edən xainlər, iblislər...

### *Mişkinaz, Ərtoğrol, Turan...bir də Vətən həsrəti*

Hüseyn Cavid həbsxanada deyirdi: – Məhbusun iki məşğuliyyəti var: biri işləmək, digəri xəyala getmək, ötən günlərin acılı-şirinli çağlarını yenidən yaşamaq. Xəyalla baş-başa qalmaq olmasa, məhbus dəli olar. Çənəmizi əlimizin içinə almaqdan dişlərimizin çoxu töküləə də, tavana dikib baxmaqdan gözlərimizin işığı azalsa da, yenə xəyala borcluyuq, bərk ayaqda dadımıza çatan, əlimizdən tutan xəyala...

Bəli, qəlbi Vətən sevgisi ilə dolu olan, könlünü yurd nisgili didib-parçalayan Cavid əfəndi həbsxanada doğulub böyüdüyü Naxçıvanın "Qızlar bulağı"nın suyunu, atası ilə tez-tez getdiyi bol çeşidli, haylı-haraylı Naxçıvan bazarını, Şahbuzun kəklikotu, qantəpər, həmərsinini, Xok lavaşını, Ordubad armudunu, Batabat yemişanını xatırlayır, tez-tez anasının təzə qurutdan hazırladığı reyhanlı yarpaq dolmasının, atasının həyətlərində qaynatdığı samovar çayının ətri burnuna gəlir, ürəyinin dərinliklərindən gələn bir köks ötürürdü. Ömrünün Bakılı çağlarını, yaradıcılığının ən gözəl dövrlərini, "Şeir pəri"sinin Xəzərin sahillərində, küçələrdə, xiyabanlarda, yuxusuz gecələrində verdiyi ilhamdan yaratdığı əsərlərini xatırlayır, təsəllisi onlardan ürəyində söylədiyi misralar olurdu.

Sibirin dumanlı-çiskinli payız günlərindən birində məhbusları ağac doğramağa aparırkən Cavid əfəndi çeşməyini gözündən salır. Saralmış-soluxmuş, hoptanan, gününə-güzəranına bənzətdiyi yarpaqların arasında onu axtararkən birdən otların arasında bir kökün üzərində bitən iki gül sataşır gözünə. Çox baxır, amma dərmir. Fikrə gedir, Ərtoğrolla Turan yadına düşür. Axı onlar da bir kökün üstündə bitən iki gül kimi məsum idilər... Qəlbi övladlarının həsrəti ilə yanır, yaxılır...

Həyat yoldaşı Mişkinaz xanım çox tez-tez yuxularına gəlir, onu qərib ellərdə tək-tənha qoymurdu. Bu yuxular uzun illər onun yeganə təsəllisi oldu. Axı Mişkinaz xanım çox qayğıkeş idi. O, gecə yarıyadək yazıb-yaradan həyat yoldaşına baş çəkər, ona təzə çay dəmləyib, bəzən mane olmamaq üçün barmaqlarının ucunda otağa girib, çayı qoyub çıxardı.

Artıq Mişkinaz xanım da, Ərtoğrol, Turan da, doğma Vətəni də Cavid əfəndidən çox uzaqlarda idi. Bir böhtan sevdiklərini ondan ayrı salmış, arzu-istəklərini yarımçıq qoymuş, onu Vətən, övlad, ailə həsrətlisi etmişdi. İndi onun həmdəmi xatirələr, nisgil və həsrət idi. Odur ki, anasının atası Molla Abdulla rəhmətə gedəndə dediyi bir bayatını tez-tez xatırlayır, dodağının altında söyləyirdi:

*Əziziyəm qəmdə gül...*
*Qəmdə danış, qəmdə gül...*
*Şadlıqda gülən könlüm...*
*Mərd igidsən...qəmdə gül...*

Hüseyn Cavid istedadlı olduğu qədər də, qürurlu, mərd bir insan idi. Lakin gülə bilmirdi. Gülüş çoxdan onun üzündən uzaq düşmüşdü. Çünki düşdüyü bələ bütün itkilərdən ağır, bədbəxtliklərdən bədbəxt idi.

### *Mən Bakıya gələn deyiləm, yollar bağlıdır*

***"Böhtan"dan:*** Deyirlər, dahilər, aqillər ölümlərinin uzaq, yaxud yaxın olduğunu kəsdirə bilirlər. Cavid də bilirdi ki, onun ölümü haradasa yaxındadı, bəlkə də, dəhlizdə, ya da lap bu palatanın içərisində hərlənir və məqam axtarır ki, vaxt tamam olanda qanadlarını onun sinəsi üzərinə gərsin... Və o da qara qanadları gözləyirdi. Nə qədər tez sərilsəydi o qanadlar, o qədər yaxşıydı... Çünki ölüm onun üçün indi bir rahatlıq idi: ömrünün son dörd ilində çəkdiyi əzablar, gördüyü işgəncələr, tab gətirib dözdüyü təhqirlər onu lap bezdirmişdi. Həmişə öz iradəsinə əhsən deyirdi ki, hələ başqa məhbuslar kimi iradəsini itirməmişdi, dəli olmamışdı. Bircə ona heyifsilənirdi ki, gözləri tamam düşmüşdü...

Cavid əfəndi ömrünün son anlarını yaşadığı xəstəxanada bir vaxtlar Bakıda erməni daşnakları tərəfindən gülləbaran edilən "Təbriz" mehmanxanasındakı vəziyyəti düşünərək xəyala dalır: – Neçə-neçə illər keçməsinə baxmayaraq, elə bil həmin güllələr indi atılırdı, özü də xəstəxananın bu kimsəsiz palatasında. ...Heyif, yüz kərə, min kərə heyif!.. Haradasan, əziz, mehriban şəhərim?.. Elə ölmək istərdim sənin doğma torpağında!.. Amma qismət olmadı, tale məni sürüyə-sürüyə gör gətirib haralara çıxardı?.. Nə "Qurani-Kərim" avizi ilə omuzlara qalxacaq cənazəm, nə ağır-ağır addımlarla Came məscidinə aparılacaq cənazəm... Nə namazıma duranım, nə "Fatihə" deyənim olacaq... Belə ölümdənsə, elə "Təbriz" mehmanxanasında ölməyim əfzəl idi...

Xəstəxananın o miskin otağında ürəyinə daman ölümü saatbasaat, anbaan gözləyən, ölüm yatağına xas sayıqlamalar, xəyallar aləminin qonağı olan şair bir azacıq yuxularkən dostu Abdulla Şaiq gəlir bu ayrılıq küləyi dolan palataya. Deyir ki, Bağırov xəbər göndəribmiş ki, Şaiqə deyin cümə günü Biləcəriyə getsin... Cavid gəlir, qarşılasın onu. Sübh tezdən getdim, gecəyarısına qədər vağzalda oldum. Hansı qatar gəldi, qabağına qaçdım, pəncərələrinə boylandım, bələdçilərdən xəbər aldım. Hamı çiynini çəkdi. Kor-peşman evə döndüm...indi özüm gəlmişəm. Cavid əfəndi cavab verir ki, "imam övladı" səni ələ salıb, bəradəri-əziz... Mən Bakıya gələn deyiləm, yollar bağlıdır... Şaiq: – "Biz açarıq o yolları". Hüseyn Cavid: – "Gücün çatmaz, çatmaz". Şaiqsə "Çatar, çatar, Cavid!" – deyib yoxa çıxır.

Bəli, Cavid əfəndinin gördüyü, sadəcə, bir yuxu deyildi, həyatda bəs verən reallığın ona ölüm ayağında agah olması idi. Cavid qayıdır deyə Bakıya yalan xəbər yaydıran ozamankı ölkə rəhbərinin cavidsevərləri müəyyənləşdirib, onlara cəza vermək tədbirlərindən biri idi bu. Bu hadisədən sonra neçə-neçə insanlar həbs olunub, Cavidi sevdikləri, onunla dost olduqları üçün işgəncələrə məruz qalmışdılar...

### *Ömrün 59-ları...*

59 nömrəli məhbus... 59 nömrəli məzar... 59 yaşda ölüm... 1937-ci ildən 59 il sonra doğulduğu torpaqda əzizlərinə qovuşmaq... Alın yazısına inananlar da olur, inanmayanlar da. Lakin hər kəsin bir alın yazısı vardır və o öz taleyini yalnız ona yazılmış bu yazı ilə yaşayır. Hələ bəzən eyni rəqəmlər də bir ömür yolunun ayrı-ayrı sevincli, kədərli məqamlarını birləşdirir. Yaşarkən fərq etmədiyimiz, lakin sonradan, "Nə üçün məhz bu rəqəm?" – dediyimiz məqamlar. Hüseyn Cavidin ömründəki rəqəmlər – 59-lar kimi. 59 Cavid ömrünün kədərli anları ilə bağlı bir rəqəm olaraq əbədiləşdi. Şair böhtanın 59 nömrəli məhbusu oldu, böhtanın acısından 59 yaşında vəfat etdi. Qərib ölkədə 59 nömrəli məzara gömüldü. Və 37-nin təlatümlü dənizinin ləpələrindən 59 il sonra böyük zəhmət hesabına doğulduğu torpağa gətirildi. Sonuncu 59 özündən əvvəlki 59-lardan fərqliliyi ilə bu rəqəmin sərtliyini əritdi. Hüseyn Cavid həbsxanada xəyallarında yaşatdığı Vətəninə, yurduna qayıda bilməsə də, bu 59-la o Naxçıvandakı "evində" həyat yoldaşı Mişkinaza, övladı Ərtoğrola qovuşdu.

### *Türmədən türbəyə: Naxçıvanda üçüncü məqbərə*

1981-ci ildə Hüseyn Cavidin 100, 1992-ci ildə 110 illik yubileylərinin qeyd olunması haqqında qərarlar verən, 1982-ci ildə şairin cənazəsini Uzaq Sibirdən Naxçıvana gətirtdirən ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı il oktyabrın 29-da Naxçıvan şəhərində Hüseyn Cavidə ucaldılan məqbərənin açılış mərasimi keçirildi. Diyarımızın Mömünə xatın və Yusif Küseyir oğlu türbə-məqbərələrindən sonra bu qəbildən olan üçüncü mədəniyyət abidəsi ilə böyük şairimiz əsl bəraətini alıb türmədən türbəyə – layiq olduğu məqama ucaldıldı. Ulu öndərimiz açılış mərasimindəki çıxışı ilə Hüseyn Cavid şəxsiyyətini bu məqbərədən də yüksəklərə qaldırmaqla xalqımın layiqli övladına hörmət və ehtiramını belə izhar etdi: ***"Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir. Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxslərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycanın milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır".***

Naxçıvanımızın ötən 25 illik həyatında ulu öndərimizin ideyalarının davamçısı, arzularını gerçəkləşdirən cənab Vasif Talıbovun da Hüseyn Cavidin məqbərəsinin açılışı zamanı çıxışında ulu öndərə xitabən söylədiyi dəyərli fikirlər unudulmazdır: ***"Möhtərəm Heydər Əliyev dühasının bəhrəsi olan Hüseyn Cavid türbəsi Əcəmi yaradıcılığına mənsub Möminə xatın məqbərəsinin davamıdı...bu məqbərə-türbə Sizin Azərbaycan memarlıq abidələri tarixində saldığınız ən dərin və silinməz izlərdən biridir. Bu abidənin tikilməsi ilə Siz Azərbaycanın, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın dünəninə, bu gününə, sabahına və gələcəyinə deyil, bütünlüklə maddi mədəniyyət tariximizə ürəkdən bağlılığınızı, sədaqətinizi əməli işinizlə sübuta yetirdiniz. Sizin həyatınız və tarixə yazılacaq bu əməli işləriniz bizim üçün daim örnək olacaqdır".***

Sonrakı illərdə şair-dramaturqun Naxçıvan şəhərindəki ata ocağında fəaliyyət göstərən ev-muzeyinin adının dəyişdirilərək "Hüseyn Cavidin Ev-Muzeyi və Xatirə Kompleksi" adlandırılması, adının məktəb, uşaqlıq və gəncliyinin xatirələri çökən küçədə əbədiləşdirilməsi, yubileylərinin keçirilməsi, Ali Məclis Sədrinin müvafiq Sərəncamına əsasən hər il oktyabrın 24-nün Naxçıvan Muxtar Respublikasında "Hüseyn Cavid Poeziya Günü" kimi qeyd edilməsi Hüseyn Cavid şəxsiyyətinə göstərilən hörmətin davamı oldu.

### *Dünəndən bu günə*

Bəli, ulu öndərin örnək olan əməlləri, işləri illərdir ki, muxtar respublikamızda bütün sahələrə göstərilən böyük diqqət, qayğı və məhəbbətdə özünü göstərir. 2019-cu ildə Ərtoğrol Cavidin və Hüseyn İbrahimovun 100 illik yubileyləri ilə əlaqədar keçirilən tədbirlər onların simasında muxtar respublikamızda elm, ədəbiyyat və mədəniyyət nümayəndələrinə göstərilən qayğını, bəslənən ehtiramı nümayiş etdirdi. Hüseyn Cavid kimi böyük şəxsiyyətin gecikmiş bəraətinin dünənlə bu gün arasında yaratdığı müqayisədə son 25 ildə diyarımızda yaradılan muzeylər, ucaldılan heykəllər, keçirilən yubileylər, verilən təltiflər, fəxri adlar qürur hissi doğurur. Düşünürəm ki, hələ də blokada şəraitində yaşayan Naxçıvanda bütün sahələrə Qurucu Rəhbərimizin göstərdiyi diqqət və qayğının, ürək yanğısının, həssaslığın nəticəsidir ki, dillər əzbərinə çevrilən diyarımız bura gələn hər bir turistin, qonağın xoş təəssüratına, burada gördüklərini yaşadıqları yerlərdə də görmək istəklərinə, Naxçıvan haqqında ölkə və xarici media nümayəndələrinin yazılarına çevrilir.

✍ **Mətanət MƏMMƏDOVA**

# Seçki marafonu

Bələdiyyə seçkiləri – 2019

**23 dekabr 2019-cu il Azərbaycan Respublikasında bələdiyyə seçkiləri günüdür**

**Hörmətli seçicilər!**

Seçki komissiyalarının üzvləri, müvafiq seçki dairəsi üzrə qeydə alınmış namizədlər və onların səlahiyyətli nümayəndələri, yaxud onların vəkil edilmiş şəxsləri, siyasi partiyaların vəkil edilmiş şəxsləri seçki komissiyasının iclaslarını, habelə səslərin hesablanmasını, məntəqə və dairə seçki komissiyalarında seçki bülletenləri, seçici siyahıları ilə, səsvermənin nəticələri və yekunları haqqında protokollarla müvafiq işin aparılmasını müşahidə etmək və onlarla tanış olmaq, dairə və məntəqə seçki komissiyalarının qərarlarının və digər seçki sənədlərinin (seçici siyahıları, səsvermə üçün qeydiyyatdan çıxma vəsiqələri, seçki bülletenləri və imza vərəqələri istisna olmaqla) surətlərini almaq, seçki komissiyalarında digər seçki hərəkətlərinin həyata keçirilməsini müşahidə etmək hüququna malikdirlər.

**Seçki komissiyalarının fəaliyyəti seçicilər üçün şəffaf olmalıdır**

Aktiv seçki hüququna malik olan Azərbaycan Respublikası vətəndaşları, o cümlədən Seçki Məcəlləsinin 44-cü maddəsində göstərilən xarici vətəndaşlar müşahidəçi qismində çıxış edə bilərlər.

**Müşahidəçi müşahidəni öz təşəbbüsü ilə və ya qeydə alınmış namizədin və ya siyasi partiyanın təşəbbüsü əsasında apara bilər**

**Azərbaycan Respublikasının bütün ərazisində müşahidənin aparılmasına dair ərizə** seçkilərin təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 10 gün qalanadək Mərkəzi Seçki Komissiyasına təqdim edilə bilər. Ərizədə müşahidə aparmaq niyyətində olan şəxsin soyadı, adı, atasının adı, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, zərurət olduqda isə həm də maraqları təmsil olunacaq namizədin adı, qeyri-hökumət təşkilatının, siyasi partiyanın adı və hüquqi ünvanı göstərilməlidir. Ərizəyə iki fotoşəkil əlavə olunmalıdır. Hər bir ərizəyə dair qərar onun verildiyi tarixdən başlayaraq 3 gün müddətində qəbul edilməlidir. Müşahidənin keçirilməsinə rədd cavabı yalnız ərizədə göstərilən məlumatlar təsdiq olunmadıqda verilə bilər. Müşahidənin keçirilməsinə Mərkəzi Seçki Komissiyası tərəfindən icazə verilmədikdə, Mərkəzi Seçki Komissiyasının bu qərarından apellyasiya instansiyası məhkəməsinə şikayət verilə bilər. Müşahidənin aparılmasına icazə verildikdə müşahidəçiyə Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi formada hazırlanmış lövhəcik verilir.

**Seçki dairəsinin ərazisində müşahidənin aparılmasına dair ərizə** seçkilərin təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 5 gün qalanadək müvafiq dairə seçki komissiyasına təqdim edilə bilər. Ərizədə müşahidə aparmaq niyyətində olan şəxsin soyadı, adı, atasının adı, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, qeyri-hökumət təşkilatının, siyasi partiyanın adı və hüquqi ünvanı göstərilməlidir. Ərizəyə iki fotoşəkil əlavə olunmalıdır. Hər bir ərizəyə dair qərarın qəbuledilmə müddəti ərizənin verildiyi tarixdən başlayaraq 2 gündən artıq ola bilməz. Müşahidənin keçirilməsinə rədd cavabı yalnız ərizədə göstərilən məlumatlar təsdiq olunmadıqda verilə bilər. Müşahidənin keçirilməsinə dairə seçki komissiyası tərəfindən icazə verilmədikdə, dairə seçki komissiyasının bu qərarından Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər. Müşahidənin aparılmasına icazə verildikdə dairə seçki komissiyası müşahidəçiyə Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi formada hazırlanmış lövhəcik verir.

Seçki komissiyalarında rəsmi daxil olmuş şikayətlərə baxıldıqda maraqlı tərəflərin nümayəndələrinin iclasda iştirak etmək hüququ vardır.

**Səsvermə gününədək seçki komissiyasının iclasını müşahidə etmək hüququna** yalnız Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi qaydada Mərkəzi Seçki Komissiyasında bu hüququn əldə edilməsi üçün qeydiyyatdan keçməklə xüsusi icazə almış müşahidəçilər malikdirlər. Mərkəzi Seçki Komissiyası tərəfindən verilən lövhəcikdə bu hüquq göstərilməlidir. Bu cür müşahidəçiləri Mərkəzi Seçki Komissiyası püşkatma yolu ilə müəyyən edir, o şərtlə ki Seçki Məcəlləsinin 40.5-ci maddəsində göstərilən subyektlərin hər birinin bu cür hüquqa malik olan bir müşahidəçisi olsun (hər bir seçki komissiyası üçün ayrı-ayrılıqda) və hər bir seçki komissiyası üçün belə müşahidəçilərin sayı 10-dan artıq olmasın. Səsvermə günü seçki komissiyasının iclasını müşahidə etmək üçün xüsusi icazə tələb olunmur.

**Səsvermə günü səsvermə otağında olan və seçki hərəkətlərinin həyata keçirilməsini müşahidə edən şəxslərin siyahısı məntəqə seçki komissiyasının katibi tərəfindən aparılır**

**Müşahidə aparılmasının prinsipləri**

Müşahidənin aparılması aşağıdakı prinsiplərə əsaslanmalıdır:

- ✓ seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməlidir;
- ✓ müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır;
- ✓ müşahidə açıq aparılmalıdır;
- ✓ müşahidənin yekunları faktlara əsaslanmalıdır.

***Sadalanan prinsiplər müşahidəçinin lövhəciyinin arxasında göstərilməlidir.***

Müşahidə seçkilərin təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərc edildiyi gündən başlana bilər və müvafiq məhkəmələrdə seçkilərlə əlaqədar bütün mübahisələrə baxıldıqdan sonra, seçkilərin yekunlarının (ümumi yekunlarının) rəsmi dərc edildiyi gün bitir.

**Yerli və beynəlxalq müşahidəçilər eyni hüquqlara malikdirlər və eyni vəzifələr daşıyırlar**

**Müşahidəçilərin hüquq və vəzifələri:**

Müşahidəçinin, o cümlədən beynəlxalq müşahidəçinin Seçki Məcəlləsinin 40.12-ci və 40.13-cü maddələrində göstərilən hüquqlarla yanaşı, aşağıdakı hüquqları da vardır:

- seçici siyahıları ilə tanış olmaq;
- səsvermə günü istədiyi vaxt müvafiq seçki məntəqəsinin səsvermə otağında olmaq;
- seçicilərə seçki bülletenlərinin verilməsini müşahidə etmək;
- səsvermə yerindən kənarda seçicilərin səsverməsini müşahidə etmək;
- seçicilərin sayını hesablamaq, seçki bülletenlərinin, ləğv edilmiş seçki bülletenlərinin sayılmasını müşahidə etmək;
- müşahidənin nəticələrinin seçki komissiyasının protokoluna əlavə olunmasını tələb etmək;
- müşahidə aparmağı təmin edən şəraitdə və müəyyən məsafədən seçicilərin səslərinin hesablanmasına, seçicilərin səsləri hesablanarkən doldurulmuş və ya doldurulmamış hər bir seçki bülleteninə səsin etibarlılığını yoxlamaq məqsədilə baxmaq, səsvermənin nəticələri və seçkilərin yekunları (ümumi yekunları) haqqında seçki komissiyasının protokolu və digər sənədlərlə tanış olmaq;
- səsvermənin təşkili ilə əlaqədar təklif və iradlarla məntəqə seçki komissiyasının sədrinə, o olmadıqda isə onu əvəz edən şəxsə müraciət etmək;
- seçki komissiyalarının sənədlərinin, o cümlədən səsvermənin nəticələri və seçkilərin yekunları haqqında protokolların, səsvermə günü seçki komissiyasının işə başladığı və seçki qutularının kilidləndiyi andan seçki komissiyaları tərəfindən səsvermənin nəticələri haqqında protokolların qəbul edilməsinədək seçki komissiyaları tərəfindən tərtib edilmiş və ya onlara daxil olmuş qoşma sənədlərin təsdiqlənmiş surətlərinin bir nüsxəsini haqq ödənilmədən çıxarmaq və ya almaq, əlavə nüsxələri Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilən haqq ödənilməklə çıxarmaq və ya almaq (müşahidəçinin tələbi ilə seçki komissiyası adıçəkilən sənədlərin surətlərini təsdiq etməlidir), səsvermədə iştirak edən şəxslərin siyahısı ilə tanış olmaq;
- müvafiq seçki komissiyalarında seçicilərin səslərinin təkrar hesablanmasını müşahidə etmək;
- seçki sənədlərinin dairə seçki komissiyasına və Mərkəzi Seçki Komissiyasına göndərilməsini müşahidə etmək.

**Müşahidəçiyə aşağıdakı hərəkətlər qadağan edilir:**

- seçicilərə seçki bülletenləri vermək;
- seçiciyə necə səs verəcəyi və ya necə səs verdiyi haqqında sual vermək;
- seçicinin xahişi ilə onun əvəzinə seçki bülleteni alınması haqqında imza etmək;
- seçicinin xahişi ilə seçki bülletenini doldurmaq;
- seçki komissiyalarının həlledici səs hüquqlu üzvləri ilə birlikdə seçki bülletenlərinin hesablanmasında birbaşa iştirak etmək;
- seçki komissiyalarının işinə maneə törədən hərəkətlər etmək;
- seçicilər arasında təşviqat aparmaq;
- bu və ya digər namizədin, siyasi partiyanın dəstəklənməsinə yönəldilən və ya dəstəklənməsi kimi qiymətləndirilə bilən hərəkətlər və ya çağırışlar etmək;
- müvafiq seçki komissiyasının qərarlarının qəbul olunmasına müdaxilə etmək;
- seçicilərin suallarına cavab vermək (öz statusu ilə bağlı suallar istisna olmaqla).

**Seçki Məcəlləsinin 42.3-cü maddəsində göstərilən tələblərə riayət etməyən müşahidəçinin qeydiyyatı onu qeydə almış seçki komissiyasının müraciəti əsasında müvafiq məhkəmə tərəfindən ləğv edilə bilər**

***Beynəlxalq (xarici) müşahidəçilər***

Beynəlxalq (xarici) müşahidəçilər qanunla müəyyənləşdirilmiş qaydada və müvafiq dəvət əsasında Azərbaycan Respublikasına gələrkən Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçirlər. **Azərbaycan Respublikasının vətəndaşları beynəlxalq müşahidəçi statusu ala bilməzlər.**

Dəvətlər seçkilərin təyin edilməsi barədə qərar (sərəncam) rəsmi dərc edildikdən sonra Milli Məclis, müvafiq icra hakimiyyəti orqanları və Mərkəzi Seçki Komissiyası tərəfindən göndərilə bilər.

İnsan və vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində nüfuzu olan qeyri-hökumət təşkilatları da beynəlxalq müşahidəçilərin dəvət olunması haqqında öz təkliflərini Milli Məclisin deputatlarına, Mərkəzi Seçki Komissiyasına və ya müvafiq icra hakimiyyəti orqanına verə bilərlər.

Beynəlxalq müşahidəçinin səlahiyyət müddəti Mərkəzi Seçki Komissiyasında qeydə alındığı gündən başlayır və seçkilərin yekunlarının (ümumi yekunlarının) rəsmi dərc edildiyi gün tamam olur.

Beynəlxalq müşahidəçi öz fəaliyyətini müstəqil və sərbəst həyata keçirir, onun fəaliyyəti müşahidəçini göndərən tərəfin hesabına və ya onun öz şəxsi vəsaiti hesabına maliyyələşdirilir.

Beynəlxalq müşahidəçi Azərbaycan Respublikası ərazisində olduğu müddətdə dövlətin mühafizəsi altına alınır. Seçki komissiyaları, dövlət hakimiyyəti orqanları və bələdiyyə qurumları ona zəruri yardım göstərməyə borcludurlar.

Beynəlxalq müşahidəçilər səsvermə günündən sonra seçki qanunvericiliyi, seçkilərin hazırlanması və keçirilməsi ilə əlaqədar mətbuat konfransı keçirə və kütləvi informasiya vasitələrinə müraciət edə bilərlər.

Beynəlxalq müşahidəçilərin seçicilərlə, namizədlərlə, qeydə alınmış namizədlərlə, seçki komissiyalarının üzvləri ilə, siyasi partiyaların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri ilə görüşmək hüququ vardır.

Beynəlxalq müşahidəçilər seçki kampaniyasının gedişi, seçkilərin hazırlanması və keçirilməsi ilə əlaqədar olmayan fəaliyyətlə məşğul olmaq üçün öz statusundan istifadə edə bilməzlər.

**Beynəlxalq müşahidəçi qanunları, beynəlxalq hüquq normalarını pozduğu hallarda Mərkəzi Seçki Komissiyası onun qeydiyyatını ləğv edə bilər**

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti***

## Karateçilərimiz 15 medal qazanıblar

*Bakı şəhərində "Araz" Peşəkar İdman Klubu və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə karate üzrə klublararası açıq turnir keçirilib.*



Turnirdə Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının 18 idmançısı da mübarizə aparıb. İdmançılarımızdan 15-i yarışlarda uğurlu nəticə göstərərək mükafatçılar sırasına düşməyi bacarıblar.

Belə ki, 6-7 yaş qrupunda 23 kiloqram çəki dərəcəsində Duyğu Rəhimzadə, 8-9 yaş qrupunda -38 kiloqram çəki dərəcəsində Rafiq Hüseynli, 10-11 yaş qrupunda 25 kiloqram çəki dərəcəsində Elxan Teymurov, 34 kiloqram çəki dərəcəsində Zəhra Məmmədova, 35 kiloqram çəki dərəcəsində Tunar Rəhimov, 12-13 yaş qrupunda 38 kiloqram çəki dərəcəsində Qafar Hüseynov və -50 kiloqram çəki dərəcəsində Abbas Əliyev bütün rəqiblərini üstələyərək turnirin qalibi adını qazanıblar. Yarışda mübarizə aparan Əli Əzizov (22 kiloqram), Sənan Səfərov (25 kiloqram), Məhəmməd Şıxəlili (42 kiloqram) və Ayan Məmmədova (42 kiloqram) gümüş, Xəyyam Məmmədov (17 kiloqram), Ruzi Məhərrəmov (19 kiloqram), Ayxan Musayev (22 kiloqram) və Ayxan



Teymurov (35 kiloqram) isə bürünc medal əldə ediblər.

Ümumilikdə, idmançılarımız 7 qızıl, 4 gümüş və 4 bürünc medal qazanıblar.

Sonda qalib idmançılarımız təşkilatçılar tərəfindən diplom və medallarla təltif olunublar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərur şəhər sakini Əmirova Sədaqət İsmayıl qızının adına verilmiş Şərur şəhəri, M.Müşfiq küçəsi 9/1 ünvanında yerləşən mənzilə aid 794 inventar nömrəli texniki pasport və qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Babək rayon Nəzərabad kənd sakini Alməmmədov Mübariz Əmir oğlunun adına olan MH-0011244 nömrəli çıxarış və AA-002916 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 828